

## Mayis Sərkər oğlu Babayev
**(1961-2021)**

`Geologiya elminin tanınmış nümayəndələrindən biri, peşəkar pedaqoq, təcrübəli təşkilatçı, təvazökar insan, geologiya-mineralogiya elmləri namizədi, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) "Neft-qaz geologiyası" kafedrasının müdiri, dosent Babayev Mayis Sərkər oğlu 5 fevral 2021-ci ildə qısa sürən xəstəlikdən sonra vəfat etmişdir. Onun vəfatı haqqında üzücü xəbər gözlənilməz olduğundan onu yaxından tanıyan və yüksək dəyərləndirənlərin qəlbində sarsıdıcı iz buraxdı. Mayis Babayev 1989-cu ildə geoloji kəşfiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1988-1992-ci illərdə "Neft - qaz yataqlarının axtarışı və kəşfiyyatı" kafedrasının aspirantı olmuş, 1993-1995-ci illərdə kiçik elmi işçi, 1995-1998-ci illərdə assistent, 1998-ci ildən isə dosent vəzifələrində çalışmışdır. Mayis Babayevin tədqiqat fəaliyyəti geologiyanın fundamental problemi olan palçıq vulkanlarının öyrənilməsinə həsr edilmişdir. 1998-ci ildə dissertasiya işini uğurla müdafiə edərək geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsinə, 2002-ci ildə isə dosent elmi adına layiq görülmüşdür.

Yüksək təşkilatçılıq qabiliyyəti və elmi zəkası ona həmişə hörmət və ehtiram qazandırıb. M. Babayev uzun illər geoloji kəşfiyyat fakültəsində dekan müavini, dekan, 2017-ci ildən isə "Neft-qaz geologiyası" kafedrasında müdir vəzifəsində çalışmış, tədris prosesinin inkişafına öz töhfələrini vermişdir. O, 70-dən çox elmi məqalə, 5 dərslik və dərs vəsaitlərinin müəllifidir. M. Babayev elmi tədqiqatlarına, təşkilatçılıq bacarığına və təhsildəki fəaliyyətində qazandığı uğurlara görə 2020-ci ildə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Mayis müəllimin işıqlı və əziz xatirəsi doğmaları, həmkarları, eləcə də onu tanıyanların yaddaşında alicənab insan, sədaqətli dost, əməksevər rəhbər işçi, yüksək mədəniyyətli ziyalı kimi əbədi yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**AMEA-nın Neft və Qaz İnstitutunun və**
**ADNSU-nun geoloji kəşfiyyat**
**fakültəsinin kollektivləri**